Yazan
19.11.13 21:40 -



Noyabrın 21-22-də Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın Rusiyaya rəsmi səfəri çərçivəsində Sankt-Peterburq şəhərində Rusiya-Türkiyə yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının IV iclası keçiriləcək.

V. Putin və R. T. Ərdoğan nazirlərin və dövlət idarələri rəhbərlərinin müxtəlif sahələr üzrə məruzələrini dinləyəcəklər. Əsas müzakirə mövzusu ticarət-iqtisadi və humanitar sahələrdə əməkdaşlıq və enerji sahəsində həyata keçirilən birgə strateji layihələrin icrası olacaq.

Toplantının yekununda bir sıra sənədlər imzalanacaq.

Sankt-Peterburqda V. Putin və R. T. Ərdoğan arasında ikitərəfli görüş də nəzərdə tutulub.